# BÖYÜK QAFQAZIN CƏNUB YAMACININ OĞUZ RAYONUNUN İQLİMİ VƏ AQROİQLİMİ

**Hüseynova G.A.**

*AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutu*
*huseynova-gulcohre@mail.ru*

Oğuz rayonu ərazisi daxilində həm dağlıq, həm də düzənlik relyefə malik olması iqlim şəraitinin müxtəlif cür formalaşmasına şərait yaratmışdır. Orta temperatur yanvarda -10°C-dən 2°C-ə, iyulda isə 6°C-dən 26°C-ə qədər dəyişir. İllik yağıntılar 450-1600 mm-dir. Oğuz rayonu ərazisində 4 iqlim tipi ayırd edilmişdir. Bu iqlim tipləri aşağıdakılardır: *dağ tundra iqlimi* – dəniz səviyyəsindən 2700 m-dən yuxarıda yüksək dağlıq zona üçün səciyyəvidir və əsasən izafi rütubətlənmə (Md=150-200% və daha çox) ilə fərqlənir; *bütün fəsillərdə yağıntıları bol olan soyuq iqlimi* – yüksək dağlıq meşə və alp zonalarını əhatə edir. izafi rütubətlənmə (Md ≥ 150-200%), soyuq qış və sərin yayı ilə fərqlənir. 10°-dən yuxarı temperaturların cəmi 400-2500° arasında dəyişir; *bütün fəsillərdə yağıntıları təxminən bərabər paylanan mülayim-isti iqlim* –orta dağlıq (600-1500 m) üçün səciyyəvidir. Rütubətlilik əmsalının Md ≥75-100% və 50-100% kəmiyyətləri, yumşaq qışı və mülayim qızmar yayı ilə fərqlənir. 10°-dən yuxarı temperatur cəmi 2500-3800° təşkil edir; *qışı quraq keçən mülayim – isti iqlim* – alçaq dağlıq və orta dağlıq zonalarında 400–1000 m hündürlükdə (Qanıx–Əyriçay vadisində 200–500 m) yayılmışdır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, havanın daha yüksək temperaturu iyul-avqust, ən aşağı temperatur isə yanvar-fevral aylarında müşahidə olunur. Oğuz rayonun havasının orta aylıq və illik temperatur göstəriciləri və atmosfer çöküntülərinin çoxillik orta aylıq və illik miqdarı aşağıdakı cədvəllərdə (cədvəl 1 və 2) təsvir olunmuşdur.

**Cədvəl 1. Havanın orta aylıq və illik temperaturu, C°**

| Aylar | | | | | | | | | | | | İllik |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | |
| 0,1 | 1,6 | 5,5 | 10,8 | 16,4 | 20,3 | 23,6 | 23,7 | 18,9 | 13,3 | 6,9 | 2,0 | 11,9 |

**Cədvəl 2. Atmosfer yağıntılarının orta aylıq və illik miqdarı, mm**

| Aylar | | | | | | | | | | | | İllik |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | |
| 50 | 62 | 105 | 112 | 132 | 122 | 77 | 65 | 121 | 133 | 91 | 58 | 1128 |

Oğuz rayonunun aqroiqlim ehtiyatları da tədqiq edilmişdir. Belə ki, burada aqroiqlim ehtiyatları rayonunun yüksək dağlıq hissəsindən alçaq dağlıq və dağətəyi hissəsinə doğru, 10°-dən yuxarı temperaturların cəmində

bitliklərin isti ilə təmin olunması aşağıdakı qurşaqları üzrə paylanmışdır: 1) çox soyuq, 800°C-dən az; 2) soyuq, 1600 - 800°C (meşənin yuxarı sərhəddi, tez yetişən kartof, taxıl və yem otları); 3) mülayim soyuq, 2200 - 1600 °C (gec və orta yetişən kartof növləri, payızlıq və yazlıq taxıl, silosluq qarğıdalı, yem otları); 4) sərin, 3000 - 2200 °C (payızlıq buğda, kartof, dənlik qarğıdalı, günəbaxan, meyvə); 5) mülayim isti, 4000 - 3000 °C (taxıl, dənlik qarğıdalı, üzüm, tütün, günəbaxan, düyü, bağçılıq, bostançılıq, cənub meyvələri); 6) isti, 4500 - 4000 °C (pambıq, taxıl, düyü, subtropik bitkilər, üzüm, faraş tərəvəz, birillik bitkilərin təkrar əkini).